# İrəvanlı məşhur alim, Cümhuriyyətin xaricdə oxutduğu 100 tələbənin biri - daşnak repressiyasının qurbanı...

**"Mən Qərbi azərbaycanlıyam" rubrikasında əslən İrəvandan olan görkəmli elm xadimi Əhməd Rəcəblidən danışacağıq. İrəvanda doğulan azərbaycanlı seleksiyaçı alim, genetik, professor, aqronom, pedaqoq, cümhuriyyət tələbəsi, Cumhuriyyətinin ali təhsil almaq üçün xaricə göndərdiyi 100 tələbədən biri, Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasının (VASXNİL) akademiki, Stalin repressiyalarının qurbanlarından olan Əhməd Rəcəblinin çox keşməkeşli həyat, ömür yolu olub.**

Tədqiqatçılar yazır ki, Stalin repressiyalarının qurbanlarından olan Əhməd Rəcəbli 100-dən çox elmi məqalənin və 24 monoqrafiyanın müəllifidir. O, Azərbaycanda ilk dəfə meyvə və dənli bitkilərin xalq seleksiyasının əvvəllər məlum olmayan nadir sortlarını qeydə alıb təsvir etmiş, onların istehsalata tətbiqini tövsiyə etmişdir. Ə. Rəcəbliyə məxsus sənədlər hazırda Azərbaycan Dövlət Elm və Texnika Sənədləri Arxivində mühafizə edilir.

**Gümüş medalı Əhməd Rəcəbli...**

Əhməd Rəcəbli 1898-ci il sentyabrın 28-də İrəvan şəhərində Məşədi Cabbar Məşədi Cəfər oğlunun və Kübra xanım Hacı Xəlil qızının ailəsində anadan olub. Barəsində internet resurslarında əks olunan məlumatlara görə, 1907-ci il sentyabrın 15-də İrəvan şəhərindəki Klassik Rus Gimnaziyasına daxil olub və 1916-ci il iyunun 1-də tam səkkizillik kursu bitirib. Hələ 1916-cı il yanvarın 1-də gimnaziyanın pedaqoji şurasının qərarı ilə nümunəvi davranışı və təhsildə qazandığı uğurları ilə əlaqədar Əhməd Məşədi Cabbar oğlu Rəcəbliyə gümüş medal verilib. O, elə həmin il Moskva Dövlət Universitetinin tibb fakültəsinə daxil olub.

**Cumhuriyyətin yüz tələbəsindən biri...**

Rəsmi məlumatlara görə, 1918-ci ildə o, "Azərbaycan füqərası" qəzetinin redaksiyasında korrektor işləyib. 1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yüz nəfər tələbənin xarici universitetlərdə təhsil almasının təmin edilməsi üçün Təhsil Nazirliyinin büdcəsinə 7 milyon rubl pul köçürülməsinə dair qərarından sonra Azərbaycan Xalq Cümhuriyyətinin dəstəyi ilə təhsilini davam etdirmək üçün Avropaya göndərilib. Bioqrafiyasında bildirilir ki, rus, italyan, alman, ispan, yunan və fars dilini bilən Əhməd Rəcəbli İtaliyanın Peruca şəhərində yerləşən, 1896-cı ildə əsası qoyulmuş Ali Kral Eksperimental Aqrar İnstitutunun məzunudur. 1936-cı ildə həmin institutun əsasında Peruca Universitetinin Kənd Təsərrüfatı, Ərzaq və Ətraf Mühit Fakültəsi təşkil edilmişdir.

**Zaqatala Kənd Təsərrüfatı Texnikumunun təşkilatçısı...**

Qeyd edilənə görə, İtaliyada təhsilini başa vurduqdan sonra 1923-ci ildə Bakıya qayıdan Rəcəbli torpaq komissarlığından iş təklifi alır. Ancaq bioloq özünün xahişi ilə seleksiya fəaliyyəti üçün əlverişli şəraiti olan Zaqatalaya göndərilir və burada aqronom kimi işə başlayır. O, 1924-cü ildə Zaqatala Kənd Təsərrüfatı Texnikumunu təşkil edir və 1937-ci ilə qədər təhsil müəssisəsinə rəhbərlik edir, eyni zamanda Zaqatala fındıqtəmizləmə zavodunda məsləhətçi kimi işləyir. Onun təşəbbüsü və iştirakı ilə Zaqatala-Car tütünçüləri yoldaşlıq kooperativi yaradılır. Həmçinin, Rəcəblinin təşəbbüsü ilə 1926-cı ildə Zaqatalada təcrübə-sınaq stansiyası qurulur və 1937-ci ilin iyuluna kimi özü həmin stansiyaya rəhbərlik edir.

Zaqatalada olarkən Əhməd Rəcəbli maarifçi-pedaqoq Firidun bəy Köçərlinin həyat yoldaşı Badisəba xanımın vasitəçiliyi ilə ömür-gün yoldaşı Fəhimə xanım Mehdibəyova ilə tanış olub ailə həyatı qurur. Cütlüyün 1928-ci ildə Nigar, 1930-cu ildə isə Xalidə adlı qızları dünyaya gəlir. Əhməd Rəcəblinin bacısı isə cümhuriyyət tələbələrindən Baxşəli bəy Sultanovla evlənir.

**Əksinqilabçı damğası vuruldu, "QULAQ" düşərgəsində əziyyət çəkdi, Babəkə əsər həsr etdi...**

Daşnakların iştirakı və Stalinin rəhbərliyi ilə keçmiş SSRİ-ni bürüyən repressiya tufanından Rəcəbli də kənarda qala bilmir, o da repressiya qurbanlarından biri olur. Rəcəliyə həsr olunmuş vikipediya məqaləsində qeyd edilir ki, 1930-1936-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dosent və kafedra müdiri, 1931-1934-cü illərdə isə həm də institutun cənub torpaqları üzrə bölməsinin rəhbəri kimi çalışan Əhməd Rəcəbli sonralar respublika torpaq komissarlığında dövlət müşaviri vəzifəsində fəaliyyətini davam etdirir. 1935-ci ildə Ali Attestasiya Komissiyasının qərarı ilə professor adı alan alim daha sonra Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasında akademik Nikolay Vavilovun rəhbərlik etdiyi subtropik bitkilər bölməsinin üzvü seçilir.

1937-ci ildə namizədlik dissertasiyasını müdafiə edən Əhməd Rəcəbli elə həmin ilin avqustunda xaricdə təhsil alması əsas gətirilərək əks-inqilabçı fəaliyyətdə ittiham edilir və QULAQ düşərgələrindən biri olan Maqadan şəhərinə 8 illik sürgünə göndərilir. Üç il Kolımada, beş il Maqadanda SSRİ Xalq Daxili İşlər Komissarlığının yardımçı təsərrüfatında aqronom işləyən Rəcəbli sürgündə olarkən yeni pomidor sortları da yetişdirir. Maqadanda ikən həmçinin bədii yaradıcılıqla məşğul olan Əhməd Rəcəbli "Babək" tarixi romanını yazır və ayrı-ayrı kağızlarda qələmə aldığı əsərini azadlığa çıxan məhbuslarla birlikdə hissə-hissə evə göndərir. Bu roman Azərbaycan nəsr ədəbiyyatı tarixində Babəkə həsr olunmuş ilk bədii əsər hesab olunur.



Rəcəblinin həbsindən sonra Bakıya gələn Fəhimə xanım bir müddət Azərbaycan Dövlət Universitetində fizika müəllimi işlədikdən sonra universitetdən xaric olunur. Hətta onun orta məktəbdə fəaliyyət göstərməsi də qadağan edilir, bununla belə, 1945-ci ildə Əhməd Rəcəblinin sürgündən qayıtması ilə vəziyyət dəyişir. Qeyd olunana görə, Fəhimə xanım "Monokristallar və onların temperatur rejimindən asılılığı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək Azərbaycanda fizika sahəsində ilk elmlər namizədi olan qadın olur. Eyni vaxtda Əhməd Rəcəbli də Azərbaycanda meyvəçiliyin inkişafı sahəsində aktual mövzular üzərində işləyir. Şirvan, Naxçıvan, Quba, Xaçmaz və Qarabağ bölgələrində yeni meyvə sortları tətbiq edən alim konserv sənayesi üçün meyvələr hazırlayır, həmçinin "Azərbaycanda meyvə bitkilərinin sortları" adlı monoqrafiyasını yazır və Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə dərslik tərtib edir. Həmin monoqrafiya seleksiyaçı alimin yalnız vəfatından sonra - 1966-cı ildə çap olunur.

**Yenidən həbs, yenidən sürgün...**

Tədqiqatçıları yazır ki, zəngin elmi fəaliyyətinə baxmayaraq, Əhməd Rəcəbli 1950-ci il martın 22-də yenidən həbs edilərək Qazaxıstanın Cambul vilayətinə göndərilir və dörd ildən sonra - Stalinin ölümünün ardınca bəraət alması nəticəsində Azərbaycana qayıdır. Məlumatlara görə, Qazaxıstandan sürgündən qayıtdıqdan sonra Əhməd Rəcəbli Azərbaycan Elmi-Tədqiqat Çoxillik Bitkilər İnstitutunun meyvəçilik şöbəsinin rəhbəri təyin olunur. O zamanlar Azərbaycan SSR-in daxili işlər naziri olan Ağasəlim Atakişiyevin imzaladığı order əsasında "xalq düşməni" adı altında həbs olunmasına baxmayaraq, Əhməd Rəcəbli, qızı Xalidənin nazirin oğlu Tofiqlə ailə həyatı qurmasına razılıq verir və gənclər 1952-ci ildə gizlicə nikah bağlayırlar. 1958-ci ildə Əhməd Rəcəbli Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki və akademiyanın bitkiçilik bölməsinin akademik katibi seçilir.

Əhməd Rəcəbli 1963-cü ilin dekabrın 15-də Moskvada ürək tutmasından vəfat etmiş və nəşi Bakıya gətirilmişdir. 1970-ci ildə vəfat edən qudası - general-mayor Ağasəlim Atakişiyev isə Əhməd Rəcəbli ilə eyni qəbiristanlıqda, Maştağada alimin məzarının yaxınlığında dəfn olunub.

Böyük alimin xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər görülüb. Belə ki, 1992-ci ildə Qubadakı Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutuna Əhməd Rəcəblinin adı verilmiş və foyedə büstü qoyulmuşdur. Eyni ildə Bakı şəhəri Nərimanov rayonunda yerləşən küçələrdən biri Əhməd Rəcəblinin şərəfinə adını daşıyır. Qeyd olunana görə, 1998-ci ildə isə Əhməd Rəcəblinin anadan olmasının 100 illiyi ərəfəsində vaxtilə yaşadığı, indiki Mirzəağa Əliyev küçəsi ev 126 ünvanında yerləşən binaya xatirə lövhəsi vurulub.

İrəvanda doğuldu, Moskvada vəfat etdi, Bakının Maştağa kəndində dəfn olundu. Həyatının ağırlığına, məşəqqətlərə baxmayaraq, akademik Rəcəbli yazdı, yaratdı, tədqiqatlar apardı. Yeni meyvə sortları yetişdirdi, özündən sonra zəngin bir irs qoydu. İnanırıq ki, çox da uzaq olmayan bir zamanda bu böyük alimin doğulduğu İrəvan şəhərində də abidəsi qoyulacaq və adı əbədiləşdiriləк. Bütün bunlar Qərbi Azərbaycana dinc və təhlükəsiz şəraitində qayıdışdan sonra baş verəcək. Qərbi Azərbaycanın böyük şəxsiyyətlərin ana yurdunda haqları özlərinə qaytarılacaq. Buna şübhəmiz yoxdur.

*İradə SARIYEVA*